**AUDİT 2024, 3 (45), səh. 103-113.**
**AUDIT 2024, 3 (45), pp. 103-113.**
**АУДИТ 2024, 3 (45), стр. 103-113.**

**DOI: 10.59610/bbu3.2024.3.10**

*Musayev Xəzər Akif oğlu,*
*doktorant,*
*Azərbaycan Turizm və Menecment Universiteti,*
*Email: xazar.musali22@gmail.com*
*© Musayev X.A., 2024*

**UOT: 69;330;338**
**JEL: R53;O18;L74**

# TİKİNTİ SAHƏSİNİN AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINA TƏSİRİ MEXANİZMİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi -** tikinti sənayesinin Azərbaycanın iqtisadi inkişafındakı mövcud rolunu və potensialını araşdırmaq, inkişaf imkanlarını və mövcud problemlərini təhlil etmək.

**Tədqiqatın metodologiyası -** tədqiqat prosesi statistik məlumatların təhlili, ixtisasçıların və mütəxəssis fikirlərinin toplanması və müzakirəsi, sahədəki müşahidələr və mövcud tikinti layihələrinin təhlili ilə həyata keçirilir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - tədqiqatın nəticələri qərarvericilər və iqtisadiyyatın inkişafında məsuliyyət daşıyan tərəflər üçün strateji planlama və formalaşdırma proseslərində əsaslı strategiyalar təklif edir.

**Tədqiqatın nəticələri** - tikinti sənayesinin Azərbaycan iqtisadiyyatına təsiri və potensialı ilə bağlı nəzəri və əməli məsləhətlər, iqtisadi inkişafın müxtəlif sahələrində irəliləmə üçün strateji yolları ehtiva edir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** bu tədqiqat Azərbaycanın iqtisadi inkişafında tikinti sənayesinin rolu ilə bağlı ən son elmi məlumatları və statistik məlumatları əks etdirir. Həmçinin, mövcud tikinti sənayesinin əhəmiyyətini və gələcəkdəki inkişaf imkanlarını öyrənməyə yönəlmiş orijinal bir tədqiqat işi kimi dəyərləndirilə bilər.

**Açar sözlər:** inşaat sənayesi, iqtisadi inkişaf, infrastruktur, urbanizasiya, ÜDM artımı, sənayeləşmə, tənzimləyici islahatlar, davamlılıq təşəbbüsləri.

## G İ R İ Ş

Tikinti sektoru inkişaf etməkdə olan ölkələrdə iqtisadi artımın, davamlı inkişafın və iqtisadi fəaliyyətin əsas mənbələrindən biri kimi xarakterizə olunur. Tikinti sənayesi ölkənin inkişafında və iqtisadi yüksəlişində rolu danılmazdır. Bu sahə ölkədə infrastrukturun inkişafında, əhalinin mənzillə təmin olunmasında, bu sahə üzrə ixtisaslı, yarımixtisaslı və qeyri-ixtisaslı işçi qüvvəsinə məşğulluq yaratmaqda mühüm rol oynayır.

Digər inkişaf etməkdə olan ölkələrdə olduğu kimi Azərbaycanın da iqtisadi inkişafında tikinti sahəsinin rolu danılmazdır. İqtisadiyyatımıza yeni iş yerlərinin açılması, iqtisadi artım, infrastrukturun inkişafı, əhalinin mənzillə təmin olunması, ölkəyə xarici investisiyaların cəlb edilməsi, davamlı inkişaf və.s. kimi müsbət təsirləri var. Dövlət Statistika Komitəsinin məlumatına görə Ümumi Daxili Məhsulun artımında qeyri-neft sektorunda böyük pay sahiblərindən biri də məhz tikinti sektorudur.

**AUDİT 2024, 3 (45), səh. 103-113.**
**AUDIT 2024, 3 (45), pp. 103-113.**
**АУДИТ 2024, 3 (45), стр. 103-113.**

Tikinti Azərbaycanda ən çox məşğulluq yaradan sahələrdən biridir. Bu sahə müxtəlif bacarıq səviyyələri üzrə geniş iş imkanları yaradaraq məşğulluğun yaranmasında mühüm rol oynayır. Xüsusilə də Qarabağın işğaldan azad olunmasından sonra Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında görülən tikinti-quruculuq işləri yeni iş yerlərinin açılmasına şərait yaratmışdır.

**Azərbaycanda tikinti sahəsinin inkişafı xüsusiyyətləri**

İnfrastrukturun inkişafı davamlı iqtisadi inkişaf üçün əsas amillərdən biridir və bunda da tikinti sahəsi mərkəzi rol oynayır. Nəqliyyat, Enerji, Kommunikasiya, su və kanalizasiya şəbəkələrinin və Sosial infrastrukturun inkişafı hər bir ölkə üçün prioritetdir. Bunun vasitəsilə ölkəyə yeni investisiyalar cəlb oluna, ümumilikdə ölkə əhalisinin rifahı yüksəldilə bilər [2, s. 279-290].

Sürətli urbanizasiya və əhali artımı tikinti sektoruna yeni imkanlar yaradır. Belə ki, əhali artdıqca və eyni zamanda şəhər əhalisi artdıqca, yeni yaşayış binalarının, ticarət mərkəzlərinin, məktəblərin, xəstəxanaların və.s tikintisinə ehtiyac yaranır.

Tikinti sənayesi həm yerli, həm də xarici investisiyaları cəlb edərək, Azərbaycanın iqtisadi inkişafına daha da təkan verir. Bakı-Tbilisi-Ceyhan boru kəməri və Cənub Qaz Dəhlizi kimi irimiqyaslı layihələr milyardlarla dollar sərmayə cəlb edib, iqtisadi aktivliyə təkan verib və yerli biznes üçün imkanlar yaradıb. Tikinti sektorunda ətraf mühitə təsiri minimuma endirmək və uzunmüddətli həyat qabiliyyətini artırmaq üçün "Yaşıl tikinti" təcrübələri, enerjiyə qənaət edən texnologiyalar və davamlı tikinti materialları getdikcə daha çox qəbul edilir. Azərbaycanda tikinti sektoru innovasiyalara və davamlılığa üstünlük verməklə təkcə iqtisadi inkişafa töhfə vermir, həm də ölkənin təbii sərvətlərini gələcək nəsillər üçün qoruyur.

Azərbaycanda inşaat sektorunun inkişafı mühüm iqtisadi inkişafa təkan versə də onun bəzi çatışmazlıqları və mənfi cəhətləri var. Tikinti sahəsində əsas narahatlıqlardan biri ətraf mühitə mənfi təsirdir. Meşələrin qırılmasının, hava və su ehtiyatlarının çirklənməsinin qarşısının alınması mühüm addımlar atılmalıdır. "Yaşıl tikinti", "Yaşıl bina" təcrübələrindən geniş istifadə edilməlidir.

Əhalinin uyğun mənzillə təmin olunması hər bir ölkədə olduğu kimi, Azərbaycanda da sosial və iqtisadi inkişafın əsasını təşkil edən amillərdən biridir. Əhalinin artması və urbanizasiya meyilləri mənzilə olan tələbatı artırmışdır. Əhalinin bütün təbəqələrini əlverişli və keyfiyyətli mənzillə təmin etmək üçün davamlı həllər tələb olunur. Azərbaycanda əhalini mənzillə təmin etmək üçün müxtəlif strategiya və təşəbbüslər həyata keçirilir. Bunlardan biri də Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılmasıdır. Agentliyin həyata keçirdiyi tikinti layihələri əhalinin, xüsusilə də aşağı və orta gəlirli ailələrin mənzillə təmin olunmasına xidmət edir. Bu layihə əhalinin mənzil problemlərinin həll edilməsi ilə yanaşı, xarici investorları da layihələrə cəlb edərək, tikinti sektoruna investisiyaların yatırılmasına şərait yaradacaq. 2025-ci ilə qədər olan dövrdə urbanizasiya səviyyəsinin yüksək olduğu Bakı, Sumqayıt, Gəncə kimi iri şəhərlərdə, 2025-ci ildən sonrakı dövrdə isə digər bölgələrdə də uyğun qiymətə mənzil layihələrinin icrası nəzərdə tutulub.Bu layihələr yaşayış şəraitini yaxşılaşdırır, şəhər estetikasını artırır və davamlı şəhər inkişafına təkan verir [1, s. 614-656].

Azərbaycan müstəqillik əldə etdikdən sonra iqtisadiyyatın bütün sahələrində inkişaf başladı. Ən çox inkişaf edən sahələrdən biri də məhz tikintidir. Bu sahədə 2000-ci ildən 2005-cilə qədər 4.2 dəfə, 2005-ci ildən 2010-cu ilə qədər 2.6 dəfə, 2010-cu ildən 2019-cu ilə qədər isə 1.89 dəfə artım olub [3, s. 454-455].

**AUDİT 2024, 3 (45), səh. 103-113.**
**AUDIT 2024, 3 (45), pp. 103-113.**
**АУДИТ 2024, 3 (45), стр. 103-113.**

Azərbaycanda tikinti sektoru ölkənin ÜDM-ə əhəmiyyətli töhfə verir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2024-cü ilin əvvəlinə olan məlumatlara əsasən, 2023-cü ildə tikinti sektoru ölkə ÜDM-nin 6,2%-ni təşkil edib. Bu, həm davam edən, həm də yeni tikinti layihələrini əks etdirən sektorun milli iqtisadiyyata güclü cəlb olunmasından xəbər verir [7].

***Qrafik 1.***

**ÜDM-in artım tempi və tikinti sektorunun ÜDM-ə töhfəsi**




***Mənbə: Dövlət Statistika Komitəsindən əldə edilən məlumatlara əsasən müəllif tərəfindən tərtib edilmişdir.***

Qrafikdə göstərilən məlumatlar Azərbaycanda istehsal olunan Ümumi Daxili Məhsulun (ÜDM) dəyişimi və tikinti sektorunun ümumilikdə ÜDM-də payını təsvir edir.

2019: Tikinti sektorunun həcmində artımın olduğu bir ildir. ÜDM-in artım dərəcəsi 2.2% olmuşdur və tikinti sektoru ÜDM-ə 7.3% töhfə ilə qatılmışdır. Bu, tikinti sənayesinin o ilin iqtisadiyyatına böyük bir təsir etdiyini və ölkədə mühüm inkişafın yaşandığını göstərir.

2020: 2019-2023-cü illər ərzində 2020-ci il istisna olmaqla heç bir ildə ÜDM-də mənfi dəyişim müşahidə olunmamışdır(-4.3%). Bu, pandemiya və onun nəticələri ilə əlaqədar iqtisadiyyatda bir geriləmə olduğunu göstərir. Lakin tikinti sektoru ÜDM-ə təsiri əvvəlki ildən daha da artıq olmuşdur (7.7 %). Bu, tikinti sənayesinin inkişafına davam etdiyini və ölkə iqtisadiyyatının gücləndiyini göstərir.

2021: Bu il ölkədə istehsal olunan ÜDM-in 5.3% artdığı müşahidə edilir. Tikinti sektorunun payı isə 4.9%-dir.

2022: 2022-ci ildə Ümumi Daxili Məhsulun həcmi 4.6%, tikintinin ÜDM-də payı isə 4.8%-dir. Bu, tikinti sektorunun ölkə iqtisadiyyatında əhəmiyyətli bir rol oynadığını və inkişafın davam etdiyini göstərir.

2023: Bu il ÜDM-də 1.1% artım qeydə alınmışdır. Hər il olduğu kimi bu ildə qeyri neft sektorunun, xüsusilə də tikinti sektorunun(6.2%) ÜDM-də rolu böyükdür.

**AUDİT 2024, 3 (45), səh. 103-113.**
**AUDIT 2024, 3 (45), pp. 103-113.**
**АУДИТ 2024, 3 (45), стр. 103-113.**

***Qrafik 2.***

**Azərbaycanda tikintidən əldə edilən gəlir**




***Mənbə: https://tradingeconomics.com/azerbaijan/gdp-from-construction***

Azərbaycanda tikintidən əldə edilən ÜDM 2023-cü ilin üçüncü rübündəki 971,70 milyon manatdan 2023-cü ilin dördüncü rübündə 1127,20 milyon manata yüksəlmişdir. Azərbaycanda tikintidən əldə olunan ÜDM 2001-ci ildən 2023-cü ilə qədər orta hesabla 558,36 milyon manat təşkil edərək, bütün zamanların ən yüksək səviyyəsinə-534 milyon manata çatıb. 2014-cü ilin dördüncü rübündə və 2001-ci ilin birinci rübündə rekord minimum olan 49,70 azn milyondur.

**İşğaldan azad olunan torpaqlarda tikinti işləri və onların iqtisadiyyatın inkişafına təsiri**

Azərbaycanda tikinti sahəsinin uğurlu inkişafından danışarkən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında görülən bərpa-quruculuq işlərini qeyd etməliyik. Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra 30 ilə yaxın işğal altında olan ərazilərini geri aldı. İşğal dövründə bu ərazilərdə infrastruktur demək olar ki, tamamilə məhv edilib. Müharibədən sonra qarşıda duran ən mühüm məsələlərdən biri işğaldan azad olunmuş ərazilərdə tikinti-quruculuq işlərinin aparılması və əhalinin köçürülməsidir. Yenidənqurma işləri müxtəlif istiqamətlərdə aparılır. İşğaldan azad edilmiş şəhər və kəndlərdə yeni məktəblər, yaşayış binaları, xəstəxanalar, hava limanları tikilir, mədəni və tarixi abidələr bərpa edilir.

Qarabağdan aparılan tikinti-quruculuq işləri müxtəlif bacarıq səviyyələri üzrə iş imkanlarının yaranmasına səbəb olur. Bu da həm yerli sakinlər, həm də ölkənin digər bölgələrindən gələn insanlar üçün məşğulluq yaradır. Eyni zamandan bərpa-quruculuq işlərindən sonra öz doğma yurdlarına köçürülmüş insanlar üçün iş imkanlarının yaranmasına səbəb olur.

İnfrastrukturun inkişafı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi inkişafı üçün əsas amillərdən biridir. Bölgəni bir-biri ilə və eləcə də ölkənin digər regionları ilə bağlayan yeni yolların, körpülərin tikintisi, su, qaz, kanalizasiya, elektrik xətlərinin bərpası və yenidən

AUDİT 2024, 3 (45), səh. 103-113.
AUDIT 2024, 3 (45), pp. 103-113.
АУДИТ 2024, 3 (45), стр. 103-113.

qurulması, əhalinin daimi məskunlaşması üçün yaşayış binalarının, məktəblərin, xəstəxanaların tikintisi, işğalçılar tərəfindən dağıdılan tarixi və mədəni abidələrin bərpası həyat keyfiyyətinin yaxşılaşdırılmasına və regiona investisiya cəlb olunmasına yardım edir. Qarabağda görülən tikinti işlərinin müsbət təsirləri olmaqla yanaşı, ekoloji problemlər, maddi texniki çətinliklər, resurs məhdudiyyəti kimi problemlərlə üzləşilir [9].

Ərazi bütövlüyümüz bərpa edildikdən sonra azad edilmiş ərazilərdə bir sıra mühüm infrastruktur layihələrinin icrasına başlanıldı. Horadiz-Ağbənd dəmiryolu xəttinin yenidən qurulması da bunlardan biridir. Bu layihənin reallaşması bütün regionun inkişafına töhfə verəcək. Bu xəttin qurulması ilə Bakı-Tbilisi-Qarsdan sonra Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaranacaq. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərə səfəri zamanı bəyan etdi ki, Horadiz-Ağbənd dəmir yolu xəttinin təməli qoyulacaq və bu layihə Azərbaycanın əsas hissəsini Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana birləşdirəcək. Bu dəmir yolu xətti Azərbaycan üçün həm strateji, həm də iqtisadi əhəmiyyət daşıyacaq [10].

Artıq Füzulidə, Zəngilanda, Tərtərdə, Laçında yerinə yetirilən bərpa və quruculuq işlərindən sonra bəzi yaşayış məntəqələrinə əhali köçürülmüşdür. 2021-ci il aprel ayının 19-da Prezident İlham Əliyev tərəfindən “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında” sərəncam imzalanıb. İşğaldan azad edilmiş ərazilərdə də bu layihənin icrası həyata keçirilir. İlk olaraq Zəngilan rayon Ağalı kəndində “Ağıllı kənd” icra olunub [6].

*Cədvəl 1.*

**Qarabağ İqtisadi Rayonunda tikinti sektoruna aid statistik göstəricilər**

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| İstifadəyə verilmiş əsas fondlar, min manat | 183111.3 | 183164.9 | 181829.6 | 174387.0 | 352518.7 | 162131.5 |
| İstifadəyə verilmiş yaşayış evləri, ümumi sahə, kv.m. | 140525 | 196565 | 43726 | 68128 | 39204 | 29807.6 |
| Əsas kapitala yönəldilmiş investisiyalar, min manat | 123499.1 | 378044.4 | 278150.1 | 259565.6 | 1342032.7 | 1887243 |
| ondan: tikinti - quraşdırma işlərinə | 116120.7 | 363301.9 | 242494.4 | 237268.2 | 1315956.4 | 1848214 |
| Qeyri-dövlət sektorunda əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | 13430.7 | 51487.9 | 25323.0 | 18425.0 | 71297.0 | 24689.4 |

**AUDİT 2024, 3 (45), səh. 103-113.**
**AUDIT 2024, 3 (45), pp. 103-113.**
**АУДИТ 2024, 3 (45), стр. 103-113.**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | 10881.5 | 46476.2 | 29594.7 | 19730.7 | 12983.1 | 26582.7 |
| Sənaye üzrə əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | 23659.4 | 124413.2 | 81522.9 | 26472.4 | 104256.9 | 181644.3 |
| Fəaliyyətdə olan tikinti müəssisələrinin sayı,vahid | 35 | 29 | 46 | 43 | 45 | 51 |
| Tikinti işlərinin dəyəri, min manat | 51386.5 | 76454.8 | 95009.2 | 73208.7 | 90833.0 | 68705.7 |
| **Məhsul istehsalı, xidmət sahələri və yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalar, min manat:** | | | | | | |
| Məhsul istehsalı sahələrinə | 40016.3 | 185465.1 | 131891.8 | 67404.3 | 359066.6 | 316204.9 |
| Xidmət sahələrinə | 64233.5 | 178208.0 | 115058.1 | 148328.6 | 970248.8 | 1561168 |
| Yaşayış evlərinin tikintisinə | 19249.3 | 14371.3 | 31200.2 | 43832.7 | 12717.3 | 9870.8 |

***Mənbə: https://www.stat.gov.az/source/regions/***

***Cədvəl 2.***

**Şərqi Zəngəzur İqtisadi Rayonunda tikinti sektoruna aid statistik göstəricilər**

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| İstifadəyə verilmiş əsas fondlar, min manat | 9.6 | 9218.2 | 1520.4 | 14.8 | 18775.9 | 43156.7 |
| İstifadəyə verilmiş yaşayış evləri, ümumi sahə, kv.m. | - | 7223 | - | - | - | - |
| Əsas kapitala yönəldilmiş investisiyalar, min manat | 199.6 | 1325.5 | 1031.8 | 21468.0 | 862228.9 | 2219425.8 |
| ondan:<br>tikinti - quraşdırma işlərinə | 190.0 | 1123.1 | 853.9 | 21453.2 | 857744.3 | 2163682.4 |

AUDİT 2024, 3 (45), səh. 103-113.
AUDIT 2024, 3 (45), pp. 103-113.
АУДИТ 2024, 3 (45), стр. 103-113.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Qeyri-dövlət sektorunda əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | - | - | - | - | 17500.0 | 23775.0 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | - | 700.0 | 310.1 | - | - | 27420.6 |
| Sənaye üzrə əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | - | 0.0 | 565.7 | - | 9773.3 | 47201.9 |
| Fəaliyyətdə olan tikinti müəssisələrinin sayı, vahid | 17 | 19 | 23 | 22 | 17 | 21 |
| Tikinti işlərinin dəyəri, min manat | 23336.7 | 23495.1 | 40183.5 | 34177.1 | 33377.5 | 30362.2 |
| **Məhsul istehsalı, xidmət sahələri və yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalar, min manat:** | | | | | | |
| Məhsul istehsalı sahələrinə | 190.0 | 700.0 | 875.8 | - | 9773.3 | 290719.7 |
| Xidmət sahələrinə | 9.6 | 625.5 | 156.0 | 21468.0 | 852425.9 | 1927488.1 |
| Yaşayış evlərinin tikintisinə | - | - | - | - | 29.7 | 1218.0 |

***Mənbə: https://www.stat.gov.az/source/regions/***

Cədvəllərdə 2015-2022-ci illər ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tikinti sektoruna aid Dövlət Statistika Komitəsindən əldə edilmiş məlumatlar qeyd edilmişdir. Cədvəllərdən də göründüyü kimi, 2020-ci ildən etibarən iqtisadi rayonlarda tikinti sahəsində əhəmiyyətli dərəcədə artım qeydə alınmışdır.

İşğaldan azad edilmiş ərazilərdə görülən mühüm işlərdən biri hava limanlarının tikintisidir. Hava limanlarının tikintisi davamlı iqtisadi inkişafda, regional əlaqələrin inkişafında, regiona investisiyaların cəlb olunmasında, turizm sektorunun dirçəlməsində mühüm rol oynayır. Eyni zamanda hava limanlarının tikinti layihələrinin icrası əhəmiyyətli sayda iş imkanları yaradır. Həm tikinti prosesi zamanı, həm də hava limanları fəaliyyətə başladıqdan sonra müxtəlif ixtisaslar üzrə işçilərə ehtiyac yaranır, bu da məşğulluğun artmasına təsir göstərir.

Qeyd edildiyi kimi, Füzuli, Zəngilan və Laçında inşa olunan beynəlxalq əhəmiyyətli hava limanlarının bir çox üstünlükləri var. Bu hava limanları beynəlxalq yükdaşımalar üçün də faydalı olacaqdır. Bölgədə istehsal olunan sənaye məhsullarının dünya bazarına çıxarılması və ixrac potensialının artmasına imkan yaradacaq. Zəngilan hava limanının ilk olaraq Zəngəzur

**AUDİT 2024, 3 (45), səh. 103-113.**
**AUDIT 2024, 3 (45), pp. 103-113.**
**АУДИТ 2024, 3 (45), стр. 103-113.**

dəhlizi ilə əlaqələndiriləcəyini nəzərə alaraq Naxçıvan və eyni zamanda Türkiyə istiqamətində yükdaşımaları asanlaşdıracaq, daşıma xərclərini və vaxt itkisini azaldacaq.

Hava limanları turizm sektoru üçün qapı rolunu oynayır. Dünyanın müxtəlif ölkələrindən gələn xarici qonaqları regionun gözəl təbiətini, mədəni və tarixi yerlərini görməyə cəlb edir. Həm xarici, həm də yerli turistlər uzaq məsafə qət etmədən Kəlbəcər, Laçın, Qubadlı, Şuşa və digər rayonlara asanlıqla səyahət edə biləcəklər. Bu hava limanları bölgədə otellər, mehmanxanalar, restoranlar kimi turizmlə bağlı investisiyaları həvəsləndirir, dayanıqlı iqtisadi inkişafa təkan verir [13,5].

## YEKUN

Tikinti proseslərini sadələşdirmək, ətraf mühitə təsiri minimuma endirmək, bu sahədə çalışanların bilik və bacarıqlarının artırılması üçün addımlar atmaq, tikinti sektorunun ölkənin iqtisadi inkişafında rolunun artırmaq üçün bir sıra tənzimləyici addımlar həyata keçirilə bilər.

Tikinti sahəsində tam avtomatlaşdırılmaya nail olunmadığından hələ də yüksək ixtisaslı işçilərə tələbat var. Buna görə də bu sahədə çalışan işçilərin təlim və bacarıqların inkişafına sərmayə qoymaq sənayedə məhsuldarlığı, keyfiyyəti və təhlükəsizlik standartlarını yaxşılaşdıra bilər.

Tikinti materiallarından və tikinti avadanlıqlarından düzgün istifadə qaydalarını bilmək və həmin qaydalara riayət etmək, öz işlərində peşəkar olmaq imkanı vermək üçün işçilərə təlim proqramlarının, seminarların, sertifikatlaşdırma proqramlarının keçirilməsi mühüm məsələdir. Bu işçi qüvvəsinin peşəkarlığını artıracaq və rəqabət qabiliyyətini təmin edəcək.

Tikinti sektorunda ekoloji davamlılığın prioritetləşdirilməsi tikinti fəaliyyətlərinin ətraf mühitə, ekosistemlərə və təbii ehtiyatlara mənfi təsirlərini azaltmaq üçün vacibdir. Yaşıl tikinti təcrübələrinin, bərpa olunan enerji texnologiyalarının və davamlı materialların mənimsənilməsinin təşviq edilməsi karbon emissiyalarını minimuma endirəcək, tullantıların əmələ gəlməsini azaldacaq və ətraf mühitin qorunmasını təşviq edəcək.

Tikinti sektorunda qeyri-rəsmiliklə mübarizə aparmaq mühüm məsələlərdən biridir. Vergidən yayınma ilə mübarizə və Azərbaycan Respublikası Əmək Məcəlləsinə uyğun hərəkət etmək prioritet olmalıdır.

Vergi güzəştlərinin, maarifləndirmə işlərinin və icra mexanizmlərinin həyata keçirilməsi əmək və vergi qanunlarına riayət olunmasına, əmək şəraitinin yaxşılaşdırılmasına və işçilərin hüquqlarının qorunmasına kömək edəcək. İnfrastrukturun planlaşdırılması, prioritetləşdirilməsi və idarəetmə təcrübələrinin təkmilləşdirilməsi resursların bölüşdürülməsini optimallaşdırmaq, layihə gecikmələrini minimuma endirmək və tikinti layihələrinə qoyulan investisiyaların dəyərini artırmaq üçün çox vacibdir.

AUDİT 2024, 3 (45), səh. 103-113.
AUDIT 2024, 3 (45), pp. 103-113.
АУДИТ 2024, 3 (45), стр. 103-113.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. 2016, səh. 614-656.

2. Rza Ali Khan Role of Construction Sector in Economic Growth: Empirical Evidence from Pakistan Economy, First International Conference on Construction In Developing Countries (ICCIDC–I) “Advancing and Integrating Construction Education, Research & Practice”, August 4-5, 2008, p.279-290.

3. S.Abbasova, E.Ahmadova Main Factors and Prospects of Development of Construction Enterprises in Azerbaijan - 55th International Scientific Conference on Economic and Social Development Development. Baku, 18-19 June 2020, p 454-455.

4. https://xalqqazeti.az/az/iqtisadiyyat/132427-insaat-sektoru-respublikada-3-cu-boyuk-mesgulluq-sahesidir

5. https://ikisahil.az/post/243958-qarabagda-tikilen-hava-limanlari-azerbaycana-ne-verecek

6. https://science.gov.az/az/news/open/17052

7. https://stat.gov.az/news/index.php?lang=az&id=5754

8. https://tradingeconomics.com/azerbaijan/gdp-from-construction

9. https://tuib.az/uploads/jurnal/ishdunyamiz_11/sehifeler_N-11.pdf

10. https://tv.ikisahil.az/post/268488-horadiz-agbend-demir-yolunun-reallashmasi-butun-regionun-inkishafina-tohfe-verecek

11. https://www.linkedin.com/pulse/crucial-role-infrastructure-economic-development-john-hammock#:~:text=By%20ensuring%20a%20stable%20energy,and%20enhances%20 productivity%20across%20sectors

12. https://www.stat.gov.az/source/regions/

13. https://yeniazerbaycan.com/Iqtisadiyyat_e63377_az.html

**AUDİT 2024, 3 (45), səh. 103-113.**
**AUDIT 2024, 3 (45), pp. 103-113.**
**АУДИТ 2024, 3 (45), стр. 103-113.**

*Khazar Akif Musayev,*
*Ph.D. Student,*
*Azerbaijan Tourism and Management University,*
*E-mail: xazar.musali22@gmail.com*
*© Kh.A.Musayev, 2024*

# THE INFLUENCE MECHANISM OF THE CONSTRUCTION AREA ON THE ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN

## A B S T R A C T

**The purpose of the research** is to investigate the current role and potential of the construction industry in the economic development of Azerbaijan, to analyze the development opportunities and current problems.

**The methodology of the research -** the research process is carried out by analyzing statistical data, collecting and discussing specialists' and experts' opinions, observations in the field and analysis of existing construction projects.

**The practical importance of the research -** the results of the study offer sound strategies in strategic planning and formulation processes for decision-makers and parties responsible for the development of the economy.

**The results of the research -** research contain theoretical and practical advices on the impact and potential of the construction industry on the economy of Azerbaijan, as well as strategic ways to advance in various areas of economic development.

**The originality and scientific novelty of the research -** this research reflects the latest scientific data and statistical data on the role of the construction industry in the economic development of Azerbaijan. Also, it can be valued as an original research paper aimed at studying the importance of the current construction industry and its future development opportunities.

**Keywords:** construction industry, economic development, infrastructure, urbanization, GDP growth, industrialization, regulatory reforms, sustainability initiatives.

**AUDİT 2024, 3 (45), səh. 103-113.**
**AUDIT 2024, 3 (45), pp. 103-113.**
**АУДИТ 2024, 3 (45), стр. 103-113.**

*Мусаев Хазар Акиф оглы,*
*докторант,*
*Азербайджанский Университет*
*Туризма и Менеджмента,*
*E-mail: xazar.musali22@gmail.com*
*© Мусаев Х.А., 2024*

# МЕХАНИЗМ ВЛИЯНИЯ СФЕРЫ СТРОИТЕЛЬСТВА НА ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНА

## Р Е З Ю М Е

**Цель исследования** – изучить текущую роль и потенциал строительной отрасли в экономическом развитии Азербайджана, проанализировать возможности развития и текущие проблемы.

**Методология исследования** – процесс исследования осуществляется путем анализа статистических данных, сбора и рассмотрения мнений специалистов и экспертов, наблюдений на местах и анализа существующих строительных проектов.

**Практическая значимость исследования** - результаты исследования предлагают обоснованные стратегии в процессах стратегического планирования и формулирования для лиц, принимающих решения, и сторон, ответственных за развитие экономики.

**Результаты исследования** - содержат теоретические и практические советы о влиянии и потенциале строительной отрасли на экономику Азербайджана, а также стратегические пути продвижения в различных областях экономического развития.

**Оригинальность и научная новизна исследования** - в данном исследовании отражены новейшие научные данные и статистические данные о роли строительной отрасли в экономическом развитии Азербайджана. Кроме того, его можно оценить как оригинальную исследовательскую работу, направленную на изучение важности современной строительной отрасли и возможностей ее будущего развития.

**Ключевые слова:** строительная отрасль, экономическое развитие, инфраструктура, урбанизация, рост ВВП, индустриализация, регуляторные реформы, инициативы устойчивого развития.

*Məqalə redaksiyaya daxil olmuşdur: 05.07.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 02.08.2024*
*Çapa qəbul olunmuşdur: 23.08.2024*

*Дата поступления статьи в редакцию: 05.07.2024*
*Отправлено на повторную обработку: 02.08.2024*
*Принято к печати: 23.08.2024*

*The date of the admission of the article to the editorial office: 05.07.2024*
*Send for reprocessing: 02.08.2024*
*Accepted for publication: 23.08.2024*